# İmam Müctəba Xamenei



Azərbaycan Araşdırma Mərkəzi

# Mündəricat

*Ayətullah Seyyid Müctəba Xamenei kimdir?* .......................................... 3

*Dini Təhsili* .......................................................................................... 8

*Yüksək elmi və fiqhi dərəcə* .................................................................. 15

*İdarəçilik səlahiyyəti və rəhbərlik təcrübəsi* .......................................... 18

*Mənəvi və əxlaqi yönləri* ........................................................................ 21

*Ümumiləşdirmə və vəhdətə çağırış* ........................................................ 24

*Düşmənin psixoloji əməliyyatları - Rəhbərliyin irsi olması şübhəsi* .... 26

بسم الله الرحمن الرحيم

# Ayətullah Seyyid Müctəba Hüseyni Xameneinin həyatına qısa bir baxış

© Azərbaycan Araşdırma Mərkəzi

# Ayətullah Seyyid Müctəba Xamenei kimdir?

Ayətullah Seyyid Müctəba Xamenei 1969-cu il sentyabrın 8-də (17 şəhrivər 1348) İran İslam Cumhuriyyətinin Məşhəd şəhərində dünyaya göz açıb. O da atası kimi ilk müəllimini öz evində tapmışdır. Eyni zamanda pak, iffətli və fədakar bir ananın varlığı sayəsində bu evin ocağı daim isti, mənəviyyatlı və bərəkətli olub. Müctəba Xamenei üçün elm yolu sonsuz bir səfər idi və bu yol onu böyük alimlərin qapısına apardı; belə ki, o, uzun illər Ayətullah Vəhid Xorasani, Ayətullah Müctəba Tehrani və Ayətullah Şübeyri Zəncani kimi böyük alimlərin dərslərində iştirak edərək İslam elmlərini geniş şəkildə öyrəndi və bu elm yolundan bərəkət aldı.

Atası Ayətullah Seyyid Əli Xameneinin halal ruzisi 17 yaşlı Seyyid Müctəbanı sadə bir bəsici kimi İranın şərəfli igidlərinin düşmənə qarşı döyüş meydanına çəkdi. Beləliklə, o, dövrün prezidenti olan Ayətullah Seyyid Əli Xameneinin övladı,

qorxmaz, qeyrətli və igid nəslin nümayəndəsi idi. Müharibədə onun komandiri olmuş Nurəli Şuştəri deyirdi ki, o, böyük cəsarətlə döyüş meydanına daxil olurdu. İranın qəlbini hədəf almaq üçün başlanan müharibədə müqavimət libasını heç vaxt tərk etməyən sərv boylu və rəşadətli igidlərlə birlikdə mübarizəsində o, Əhli-Beyt (ə) diyarının cəsur oğullarından biri kimi yadda qaldı. Ağa Müctəba İslam Cümhuriyyətinin yaranışının ilk günlərindən İslam torpağını və vətənini qorumaqda möhkəm və əzmlə dayanacağını sübut etdi. Müharibədən sonrakı dövrdə isə böyük alimlərin dərgahında təxminən on səkkiz il diz vuraraq elm öyrənmiş gənc müctəhid keçən əsrin 90-cı illərinin əvvəllərində yüzlərlə tələbəyə dərs deyən bir müəllim oldu və 2005-ci ildən etibarən iyirmi il ardıcıl olaraq fiqhin "xaric dərsləri" mərhələsini tədris etdi. Getdikcə artan tələbə marağı ilə Seyyid Müctəbanın dərsi hövzənin ən izdihamlı ali səviyyəli dərslərindən biri kimi tanındı. Ərəb və ingilis dillərini yaxşı bilən Seyyid Müctəba

Xamenei eyni zamanda psixologiya və psixoanaliz sahəsində də ixtisaslaşdırılmış təhsil almışdır.

Əxlaq yönümlü bir fəqih və humanitar elmlər müəllimi olan bu şəxs dinin mətnində dərin və bənzərsiz bir biliyə sahib olmaqla yanaşı, müasir texnologiyalar, hərbi elmlər, təhlükəsizlik məsələləri, siyasi prinsiplər və ölkənin idarə olunmasının praktiki tələbləri sahəsində də geniş məlumat və anlayışa malikdir. O, korrupsiyaya qarşı mübarizə aparan bir şəxsdir və illər boyu sivilizasiyanın hələ kəşf olunmamış üfüqlərini araşdırmış, ölkənin inkişaf yolunun müxtəlif mərhələləri üzərində nadir bir əhatəli baxış əldə etmişdir. Bu isə şəhid inqilab rəhbərinin buyurduğu kimi artıq zirvəyə yaxınlaşmış bir yoldur və yorulmadan davam etdirilməlidir.

İranın misilsiz inqilab rəhbərinin ikinci övladı olaraq o, həyat tərzində atasının yolunu davam etdirmiş, sadə həyat sürməyi şəxsi həyatının əsas prinsipi etmişdir. Ağa Müctəba da atası kimi bir tərəfdən düşmən qarşısında möhkəmlik və ilahi

dayanıqlığın təcəssümüdür, digər tərəfdən isə xalq üçün təhlükəsiz və mərhəmətli bir sığınacaqdır. İndi isə atasının və ilə üzvlərinin şəhadətinin sonsuz kədərinə baxmayaraq o, sanki heç solmayan və qaməti əyilməyən bir sərv kimi İslam İnqilabına xidmət meydanına addım atır ki, Ruhullah Xomeyninin (r) qoyduğu əsər onun davamçılarının səyləri ilə davam etsin. İranın və dünyanın məzlumlarının qəlbində olan ümid, parlaq bir şam kimi yanmağa davam etsin.

Onun uca şəxsiyyəti və Ayətullah Xamenei ilə yaxınlığı nəzərə alınaraq, illərdir ki, ziddi-inqilabçıların və İslam Respublikası düşmənlərinin hücum hədəfindədir; belə ki, 2019-cu ilin noyabrında ABŞ Maliyyə Nazirliyi şəxsən onu sanksiyaya məruz qoydu. Halbuki onun həyatında ən kiçik bir iqtisadi və siyasi qara nöqtə yoxdur. Bütün bunlara baxmayaraq, tez-tez müxalif media orqanlarının diqqət mərkəzində olmuşdur.

Ayətullah Seyyid Müctəba Xamenei 2009-cu il fitnəsinin başlanğıcından etibarən də münafiqlərin

şiddətli təbliğat hücumlarına məruz qalmış, xaricdən yönləndirilən və yeridilən şüarlarla onun şəxsiyyətini ləkələməyə çalışmışlar. Bu təhqirlər və yalanlar nəinki onun şəxsiyyətini sarsıtmadı, əksinə, inqilabçıların (vilayətçilərin) qəlbində ona olan məhəbbəti artırdı. Halbuki elə əvvəldən şəhid Qasim Süleymani kimi tanınmış şəxslər onunla yaxın və həmfikir münasibətə malik idilər. Gənc Xamenei heç vaxt öz mövqeyindən və qohumluq əlaqəsindən sui-istifadə və hakimiyyətə birbaşa müdaxilə etməyib. Ölkənin bir çox alim və siyasi xadimlərinin onun, ölkə idarəçiliyində fəal mövqelərə daxil olması üçün etdiyi təkliflərə baxmayaraq, o, hövzədə təhsil və dərs deməyi üstün tutdu. Bununla belə, şəxsi məlumatı, bacarığı və daşıdığı məsuliyyətlər səbəbilə ölkə işlərindən də uzaq deyildi. Ayətullah Seyyid Məhmud Hüseyni Mərəşi Nəcəfinin (Ayətullah Mərəşi Nəcəfinin oğlu) Ayətullah Seyyid Müctəba Xameneinin elmi və şəxsi xüsusiyyətləri barədə belə yazır: “Mən şəxsən həzrət Ayətullah ağa Hacı Seyyid Müctəba Xamenei

ilə yaxından tanışam, onu mütləq müctəhid hesab edirəm və insanlar ona təqlid edə bilərlər. O, çox saf nəfsli, ağıllı siyasətçidir hər şeydən önəmlisi, elmi şəxsiyyəti zirvədədir və hamı bu fikirdə həmrəydir.”

## Dini Təhsili

Ayətullah Seyyid Müctəba Xamenei ilkin hövzə dərslərini Ayətullah Müctəhidi Tehraninin məktəbində keçmiş və daha sonra müqəddəs müdafiə (8 illik İraq-İran müharibəsi) illərində cihad cəbhələrində İslam döyüşçüləri sırasında iştirak etmişdir. Müharibə bitdikdən sonra, 1989-cu ildə hövzə təhsilini davam etdirmək üçün Quma səfər etmiş və 1992-ci ilin əvvəlinə qədər orada yaşamışdır. 1992-ci ildə beş il müddətinə Tehrana qayıtmış və hövzə təhsilini orada davam etdirmişdir. 1997-ci ildə şəhidə Zəhra Həddad Adillə evlənmiş və həmin il hövzə təhsilini kamilləşdirmək və mənəvi feyzlərdən bəhrələnmək üçün ikinci dəfə Quma köçmüşdür. O, ali səviyyə dərslərini

Ayətullah Əhmədi Miyanəci, Ayətullah Rza Ustadi, Ayətullah Osvəti və Qumun digər seçilmiş alimlərinin yanında keçmişdir. Ali səthdə fiqh və üsul dərslərini isə şəhid atası Ayətullahül-uzma Xameneinin hüzurunda, həmçinin Ayətullahül-uzma Şeyx Cavad Təbrizi, Ayətullahül-uzma Şeyx Hüseyn Vəhid Xorasani, Ayətullahül-uzma Seyyid Musa Şübeyri Zəncani, Ağa Müctəba Tehrani və Ayətullah Şeyx Məhəmməd Mömin Qumidən bəhrələnmişdir. O, 17 ildən artıq müddətdə fasiləsiz olaraq müxtəlif "dərs xaric" dərslərinin tədrisində fəal şəkildə iştirak etmişdir. Ərəb dilində elmi məqalələr təqdim etməsi, dərsdən kənar elmi müzakirələrdə təklif və tənqidlərini ustadlarla bölüşməsi böyük alimlərin ona xüsusi diqqət göstərməsinə səbəb olmuşdur. İslam elmlərinin müxtəlif sahələrində nizamlı və ardıcıl düşüncə əsaslarına sahib olması və bu əsaslara elmi fəaliyyətlərində ciddi şəkildə bağlı qalması onun mühüm üstünlüklərindən sayılır.

Məzmun və dərs üslubundakı yeniliklər (keçmiş alimlərin nəzərlərinə tam bələd olmaqlıq, elmi əsasların tənqidi, məsələlərin sistemli şəkildə izahı, nizamlı və məntiqi bəyan, fikri azadlıq və elmi dürüstlük, nümunəvi əxlaq və təvazökarlıq) nəticə etibarilə onun “dərs xaric” dərsinin Qumda tədricən ən canlı və ən çox tələbənin iştirak etdiyi dərslərdən birinə çevrilməsinə səbəb oldu. Koronavirus dövründən və dərslərin dayandırılmasından əvvəl onun dərsində 400-dən çox tələbə iştirak edirdi. Pandemiya ərəfəsində dərslər onlayn şəkildə davam etdi və sonrasında da onun Tehranda yaşaması və Quma mütəmadi gediş-gəlişin çətinliyi səbəbilə eyni qaydada davam etdirildi. 2023-2024 tədris ili başlananda 1300-dən çox tələbə dərs üçün qeydiyyatdan keçmişdi. İlk dərs günündə 700-dən çox tələbə iştirak etdiyi halda, o, gözlənilmədən dərsin dayandırıldığını elan etdi və tələbələrdən halallıq istədi. Bu xəbər bütün tələbələr və digər şəxslər üçün tam gözlənilməz idi və adi izahlarla uyğun gəlmirdi. Bu hadisədən sonra Qumun 1000-ə

yaxın tələbə və müəllimi bir məktubla ölkənin ali rəhbərinə müraciət edərək Seyyid Müctəba Xameneinin dərslərinin yenidən başlanmasında vasitəçi olmasını istədilər. Qumun bəzi böyük alimləri də şifahi şəkildə eyni tələbi irəli sürdülər. Lakin o, bir qrup köhnə tələbə ilə şəxsi görüşündə dərsin dayandırılmasının mənəvi səbəbə bağlı olduğunu və açıqlanmasının mümkün olmadığını bildirdi. Bununla yanaşı, o, vurğuladı ki, post-korona dövründə bir çox yaxşı müəllimlərin dərsləri zəiflədiyi və ya tamamilə dayandığı halda, onun dərsinin bu qədər geniş kütlə ilə davam etməsinin doğru olmadığını düşünür və tələbələrdən dərsin bərpası üçün ictimai və şəxsi tələbləri dayandırmağı xahiş etdi. Maraqlıdır ki, onun sözlərinə görə, min nəfərlik məktub və bəzi şifahi müraciətlərdən sonra atası məsələni onunla müzakirə etmiş və lazım gələrsə, tövsiyə verə biləcəyini bildirmişdi. Lakin oğlunun qəti qərarını öyrəndikdən sonra məsələni tamamilə öz öhdəsinə buraxmışdı. Ayətullah Seyyid Müctəba Xamenei

həmin tələbələrə bildirmişdi ki, dərsdə iştirak edən tələbələri digər müəllimlərə yönləndirsinlər və “elmi səviyyə”, “inqilabi düşüncə” və “nəfsin saflığı” kimi meyarları ideal müəllim üçün əsas şərtlər kimi təqdim etmişdi. Dostların israrı və şəhid rəhbərin ona “Ürvətül-vusqa”ya haşiyə yazması barədə tövsiyəsini eşitdikdən sonra, əvvəlcə imtina etsə də, qərarı gələcəyə saxladı və bir müddət sonra elmi fəaliyyətini bu işə, həmçinin fiqh və üsul dərslərinin yenidən yazılmasına yönəltdi və bu iş bu günə qədər davam edir. Qum hövzəsinin fiqh yönünün gücləndirilməsi onun əsas qayğılarından biri olduğundan, müxtəlif elmi yanaşmalara malik inqilabi fiqh institutlarını dəstəkləməklə yanaşı, özü də müstəqil şəkildə bəzi elmi mərkəzlər və fiqh məktəbləri təsis etmişdir. Onun özünü ön plana çıxarmamaq, hövzənin və inqilabi elmi cərəyanın gücləndirilməsinə üstünlük vermək, İmam Xomeyni və şəhid Ayətullahül-uzma İmam Xameneinin düşüncə xəttini əsas meyar kimi qorumaq, rəqabətçi mühitlərin yaranmasından çəkinmək kimi yüksək

ehtiyatlılığı bir çox böyük alimlərin təqdirinə səbəb olmuş, geniş bir müəllim və tələbə kütləsinin bu mərkəzlərə meyl etməsinə yol açmışdır.
Onun daxilində alovlanan fitri zəka elmi azadlıqla birləşmişdir. O, fiqh tarixinin dərinliklərinə səyahət etmiş və məsumlar dövrünün düşüncə əsaslarına xüsusi diqqət göstəmişdir. Seyyid Müctəba öz zehnində böyük alimlərin fikirləri arasında geniş bir mübahisə meydanı qurdu; Şeyx Ənsari və Mühəqqiq Naininin nəzərlərini İmam Xomeyninin dərin baxışları ilə cilaladı. Nəticədə yeni bir düşüncə sistemi doğuldu. O, şəri hökmün mahiyyəti və hədis kitablarının tarixi inkişafı kimi mövzularda yeni fikirlər söylədi. Onun qurduğu sistemdə rical elminin dəqiqliyi ilə İslam sivilizasiyası yönümlü anlayış bir-birinə bağlanmışdı. Artıq hövzə məclislərində "Seyyid Müctəbanın elmi məktəbi"ndən danışılırdı. O, iti qələmi ilə fiqh və üsul üçün yeni bir xəritə çəkən gənc idi. Ağa Müctəbanın tədris fəaliyyəti Ayətullah Müctəhidi məktəbindən başladı. 1995-ci ildə "Məalim" dərsini

tədris etməyə oturduğu zaman bir tövsiyə onun yolunu dəyişdirdi. Atası ona islahatın zərurətindən və şəhid Sədrin düşüncələrinin əhəmiyyətindən danışdı. Seyyid Müctəba ənənəvi tədrisi dayandırdı və şəhid Sədrin "Hələqat" dərslərinə yönəldi. 1998-ci ildə Qumda İmam Xomeyninin mübarək evində yüksək fiqhi səviyyə olan "Rəsail" və "Məkasib" dərslərini tədris etməyə başladı. Şagirdləri onun elmi düyünləri necə açdığını öz gözləri ilə görürdülər. Çox keçmədən o, çətin və məsuliyyətli "dərs xaric" mərhələsinə qədəm qoydu və əvvəlcə "namaz" mövzusunda öz şagirdləri ilə xüsusi şəkildə canlı ictihad yolunu başladı. Onun dərs məclisində elm mənəviyyatla birləşirdi. Dərsin müəyyən anlarını Qurani-Kərimin təfsirinə həsr edirdi və bu təfsirlər nadir və yeni incəliklərlə dolu olurdu. Amma ən gözəl hissə dərslər arasındakı səmimi oturuşlar idi. O, tələbələrin arasında əyləşir, müəllimlə şagird arasındakı sərhəd aradan qalxırdı. Sonsuz səbir ilə elmi iradları dinləyirdi, bəzən uzun telefon söhbətləri şəklində belə davam edirdi. Onun

məqsədi "hərtərəfli müctəhid" yetişdirmək idi və tələbələrinə tapşırırdı ki, elmi məsələlərin alt bölmələrini özləri araşdırsınlar və ona təqdim etsinlər. Bu sistemdə əxlaq və təvazökarlıq elmi yüksəliş üçün iki qanad kimi idi.
Ağa Seyyid Müctəba həmişə mənəviyyat əhlindən bilik toplayan bir yolçu idi. O, bu sahədə Ayətullah Bəhauddinin sirdaşlarından, Ayətullah Behcətin şagirdlərindən, Ayətullah Kəşmiri və Şeyx Cəfər Müctəhidinin yaxınlarından idi. Bu əlaqələr onun şəxsiyyətini olduqca mükəmməl formalaşdırmışdı. Bu böyük şəxslərin onun haqqında söylədiyi mənəvi təsdiqlər çoxdur və mənəviyyat əhli arasında qorunub saxlanılır.

## Yüksək elmi və fiqhi dərəcə

Ayətullah Seyid Müctəbanın ictihad və fiqhi dərinliyinin ən güclü dəlillərindən biri ona ictihad icazəsinin dövrün ali dərəcəli nadir təqlid mərcəyi olan Həzrət Ayətullah əl-üzma Vəhid Xorasani

tərəfindən verilməsi və bu ictihadın onun tərəfindən təsdiq edilməsidir.

Ayətullah Vəhid ictihad icazəsi vermə məsələsində həddən artıq ciddi və dəqiq olması ilə tanınır. O, heç kəsə asanlıqla ictihad icazəsi verməz. Onun bu icazəsi Ayətullah Seyid Müctəbanın fiqh və üsul elmləri baxımından yüksək ictihad dərəcəsinə yetişməsinin və güclü istinbat qabiliyyətinə malik olmasının möhürüdür. Tədris etdiyi "dərs xaric"də "Samirra tədris metodun"dan istifadə etdiyi məlumdur. Bu, fiqh və üsul sahəsində mövcud olan bütün fikir, nəzəriyyə və dəlillərə misilsiz hakimlik, habelə çox yüksək analiz və ümumiləşdirmə qabiliyyəti tələb edən qabaqcıl bir metoddur. Bu metoddan az istifadə olunur, çünki keçmiş və müasir nəzəriyyələrə tam şəkildə əhatəlilik, onları dəqiq araşdırma və tənqid etmə bacarığı tələb edir. Bu tədris metodunu seçməsi onun fiqh məsələlərində güclü hafizəyə, dərin düşüncəyə və sistematik təfəkkürə malik olduğunu göstərir.

İnqilabın şəhid Rəhbəri İmam Xameneinin rəhbər

olduğu dövrlərdə dəfələrlə övladına "niyə "Ürvə"yə (Ürvətul-vüsqa kitabına) haşiyə yazmırsınız?" deyə tövsiyə verdiyi bildirilir. Bu, sadə bir atalıq tövsiyəsi deyil, yüksək elmli bir fəqih olan Vəliyyi-əmr tərəfindən onun ictihad və fiqh sahəsində yüksək bilik və bacarığa malik olmasının əsaslı göstəricisi və rəsmi təsdiqidir.

Şiə məzhəbinin fiqh sahəsi üzrə ən mühüm və ən əhatəli mənbələrindən olan «Ürvətül-vüsqa» əsərinə haşiyə yazmaq hər fəqihin işi deyil, yalnız yeni fiqhi prinsip və görüşlərə malik olan mütəxəssis müctəhidlər bunu edirlər. Bu, Şəhid Rəhbərin onun elmi və ictihad potensialına tam şəkildə etimad etdiyini göstərirdi.

Təqdim olunan məlumatlar qeyd edildiyi kimi, onun qətiyyətli səyləri ilə müşayiət olunan fitri istedadı hövzə elmlərində (xüsusilə fiqh, üsul və rical elmlərində) qətiyyətli yeniliklərin irəli sürülməsinə səbəb olmuşdur.

Onun şəri hökmün həqiqət və mahiyyəti, hökmün dərəcələri, hökmlərin meyarları və s. kimi

fundamental mövzularda irəli sürdüyü nəzəri yeniliklər əhatəli bir elmi məktəbin formalaşmasına gətirib çıxarmışdır.

Şeyx Ənsaridən İmam Xomeyniyə qədər olan böyük alimlərin üsul və fiqh məktəblərinə elmi hakimliyi, imamların səhabələri və qədim imamiyyə alimlərinin fikir və rəylərinə xüsusi diqqəti bu məktəbin zənginliyini artırmışdır. Sözügedən cəhətlər göstərir ki, o, bir təqlidçi və ya şərhçi deyil, fiqh və üsul sahələrində nəzər sahibi olmuşdur.

## İdarəçilik səlahiyyəti və rəhbərlik təcrübəsi

İnqilabın Şəhid Rəhbərinin yüksək vəzifəli dövlət rəsmilərinə (Hicazi, Fədai, Sərdar Fədəvi və s.) dəfələrlə dediyi "Ağa Müctəbanın rəyləri mənim rəylərimdir" cümləsi Vəliyyi-fəqih tərəfindən onun strateji analiz, zəka və düşüncə qabiliyyətinə tam etimad edilməsinin aşkar dəlilidir. Bu cümlə onu göstərir ki, Ayətullah Seyid Müctəba Xamenei sadə bir müşavir və əlaqələndirici deyil, dövlətin xüsusilə

həssas və həyati əhəmiyyət daşıyan məsələləri ilə bağlı çox mühüm qərarlarının qəbul edilməsi prosesində ən yüksək səviyyədə rol oynayan və Şəhid Rəhbərin tam etimad göstərdiyi bir adam olmuşdur. Belə bir etimad səviyyəsi yalnız siyasi bəsirət və unikal bir idarəetmə bacarığına əsaslanır. 2026-cı il yanvar ayı iğtişaşlarını idarə etmək üçün yaradılan bir neçə nəfərlik şurada (hərbi və təhlükəsizlik xidmətinin Sərdar Radan və Sərdar Pakpur kimi yüksək rütbəli şəxsləri ilə birlikdə) yer alması ölkənin həyati əhəmiyyətli təhlükəsizlik məsələləri ilə bağlı qərarların qəbul edilməsində onun aktiv və effektiv rol oynadığını göstərir. Bu onun sadəcə bir alim və nəzəriyyəçi deyil, həssas məqamlarda və böhran vəziyyətlərində ölkəni problemlərdən xilas edə bilən qətiyyətli bir meydan adamı olduğunu sübut edir. Ən yüksək təhlükəsizlik səviyyəsində qazanılmış bu təcrübə, ölkənin gələcək rəhbərliyi üçün çox böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, beynəlxalq məsələləri tam əhatəli bilməsi, qavraması və bu məsələlərlə bağlı güclü və

dəqiq analizlərinin olması, xüsusilə beynəlxalq idarəetmə sahələrində dövlətin yüksək rütbəli rəsmiləri ilə sıx əlaqələri onun dünya və regionun geopolitikasını dərindən bildiyini göstərir. Hərbi komandanlar və Müqavimət Cəbhəsinin liderləri ilə əlaqələri onun strateji baxış bucağından xəbər verir. Bu xüsusiyyət Müqavimət Cəbhəsinin bayraqdarı olan bir dövlətin rəhbərliyi üçün zəruri və həyati bir şərtdir. O, ölkənin yüksək rütbəli rəsmilərinə məsləhət vermək təcrübəsinə də malikdir. Bu fakt onun ölkənin idarə edilməsi məsələlərini çox yaxşı bildiyini, müxtəlif sahələrdə praktiki və peşəkar həll yolları təqdim edə bilmə bacarığına malik olduğunu göstərir. Əlbəttə, ölkənin bütün məsələlərinə Şəhid Rəhbər qədər hakim olmaya bilər. Bu, təbiidir, lakin idarəçilik məsələlərinə dair nisbi və dərin biliyə malik olması danılmazdır.

Bu faktlar gözlər önündə fəqihlik və elmi dərinliyə malik olmaqla yanaşı, ölkənin yaxşı şəkildə idarə edilməsi, böhran vəziyyətlərində qərar qəbul etmə, ölkə və beynəlxalq səviyyəli strateji məsələlərdə

yüksək idarəçilik təcrübəsinə və qabiliyyətinə malik olan bir şəxsin simasını canlandırır. Bu parametrlər onun Vilayəti-Fəqih kimi mühüm bir vəzifəni tutmaq üçün kifayət edən şərtləri özündə ehtiva etməsinin sübutudur.

## Mənəvi və əxlaqi yönləri

Paklıq və iffət baxımından onun həyatında heç bir qaranlıq məqam tapmaq olmaz. Düşmənlərin, dövlət məmurlarının kiçik bir büdrəməsini axtardıqları bir cəmiyyətdə bu məsələ çox böyük əhəmiyyət kəsb edir. Rəhbər şəxs üçün zəruri hesab edilən bu paklıq şərti düzgün tərbiyənin və nəfsin daim nəzarətdə saxlanılmasının nəticəsidir. Seyyid Müctəbanın daim Ayətullah Bəhauddini, Bəhcət, Kəşmiri və Şeyx Cəfər Müctəhidi kimi görkəmli mərcələr, əxlaq və irfan ustadları ilə davamlı və sıx əlaqədə olması onun mənəviyyat məsələlərinə çox diqqət yetirməsindən və irfani seyr-sülukundan xəbər verir.

Bu əlaqələr onun mənəvi dərinliyinin, dinin batini yönlərinə və nəfsin tərbiyəsinə verdiyi önəmin sübutudur. Özünütərbiyə və irfan əhli olan bir rəhbər cəmiyyəti də mənəviyyata və ilahi dəyərlərə doğru yönəldə bilər. Onun Qum Elmi Hövzəsində fiqh elminin gücləndirilməsi ilə bağlı qayğısı müxtəlif elmi yanaşmalara malik olan fiqh mərkəzləri və məktəblərinin yaradılmasına və himayə edilməsinə səbəb olmuşdur. Bu addım onun kollektivlik ruhiyyəsinə önəm verməsindən və şəxsiyyətmərkəzlikdən qaçdığını göstərir. O, İmam Xomeyni və Şəhid Rəhbərin ideoloji xəttini əsas götürmüş və bu, hövzənin bir çox böyük simaları tərəfindən alqışlanmışdır. Bu xüsusiyyət ümməti vilayət mehvəri və ilahi hədəflər ətrafında səfərbər etməli olan bir rəhbər üçün olduqca həyati əhəmiyyət daşıyır. O, elə bir insandır ki, atası otuz yeddi il bu ölkənin rəhbəri olmuşdur, amma özü o qədər şöhrətdən qaçan bir şəxsdir ki, onun şəkillərini tapmaq istəsəniz, çox az rast gələrsiniz. Yəni o qədər ixlaslı bir insandır ki, görünmək və

tanınmaq üçün heç nə etmir. Eyni zamanda çox böyük bəsirət sahibidir. Şəhid İmam Xamenei deyirdi ki, əlhəmdülillah, onun övladlarının hamısı bəsirət sahibidir. Amma Ağa Müctəba mənə ən yaxın siyasi düşüncəyə malik insandır.

Görün, Allah bu şəxsi bu inqilab üçün necə böyük bir ehtiyat və sərvət olaraq saxlamışdır. O, düşmənlərin gözündə həmişə tikan olmuşdur və indi də belədir. Düşmən uzun illər əvvəl görmüşdü ki, bu şəxs nə qədər böyük potensiala və qabiliyyətə malikdir. Biz bunu tam anlamaya bilərik, amma düşmən yaxşı bilir. Əgər Həzrət Ağa (şəhid Rəhbərimiz) rəhbər olmasaydı, onun şəxsiyyəti bu günkindən daha geniş şəkildə tanınardı, amma rəhbərlik məsuliyyəti səbəbilə onun çoxqatlı və dərin şəxsiyyətinin bir çox tərəfləri hələ də bizim üçün tam açılmamış qalıb. Ağa Seyyid Müctəba da eynilə belədir. Əgər o, Həzrət Ayətullah Xameneinin oğlu olmasaydı, bu gün hövzələrdə və universitet mühitində ən məşhur və tanınmış şəxslərdən biri olardı. Universitet mühitinə baxın: bir professorun

qırx tələbəsi olur, iki dərsi olsa səksən tələbəsi olur. Amma təkcə bir ildə onun ali səthdə “xaric dərsləri”ndə min səkkiz yüz tələbə iştirak edirdi. Lakin o, öz təvazö və ixlası səbəbilə dərsinin bu qədər izdihamlı olduğunu görəndə dərsi dayandırmışdı ki, onun dərsinin çoxluğuna görə digər alim və mərcə'lərin dərslərində iştirak azalmasın. Bu gün Allah bizə böyük bir nemət verərək bu şəxsi bizim rəhbərimiz qərar vermişdir və bu gün o, dünya müsəlmanlarının vəliyyül-əmridir.

## Ümumiləşdirmə və vəhdətə çağırış

Elmi, idarəçilik və mənəvi xüsusiyyətlərinin (məktəb yaradan dərin fəqihlik xüsusiyyətinə malik olması, fiqh sahəsinin zirvə şəxsləri tərəfindən təsdiq edilməsi, Şəhid Rəhbərin etibarlı məsləhətçisi olması, böhran vəziyyətinin idarə edilməsi, beynəlxalq məsələləri dərindən bilməsi, mənəvi paklıq, irfani seyr-süluk, xüsusi tərbiyəyə sahib

olması) məcmusu Ayətullah Seyid Müctəba Xameneinin ölkənin və İslam ümmətinin gələcəyi üçün lazım olan kamil bir şəxsiyyət olduğunu sübut edir. İmam Xomeyninin (r.ə) üsul prinsiplərində də qeyd edildiyi kimi, imperializm cəbhəsinin bir şəxsiyyətlə düşmənçilik etməsi həmin şəxsin haqlı və güclü olmasından xəbər verir. Ayətullah Seyid Müctəba Xameneiyə qarşı yönələn media hücumları onun zəifliyinin deyil, əksinə, Allahın lütfü sayəsində indiyə qədər gizli qalmış gücünün və nüfuzunun sübutudur. Bu həssas mərhələdə haqqı batildən ayırmaq üçün bəsirətə və vilayət oxu ətrafında birləşməyə hər zamankından daha çox ehtiyacımız var.

Düşmənin şübhələrinin ümmətin vahid sıralarını parçalamasına icazə verilməməlidir. Müharibənin sonlandırılması və sülh mövzusunda tam çəkindirmə prinsiplərini rəhbər tutan Quran diskursuna diqqət yetirilməlidir. Bu, o deməkdir ki, sülh və atəşkəs yalnız tam çəkindirmə nöqtəsinə çatdıqdan və düşmənin yenidən hücum etmək

iqtidarında olmadığına əmin olduqdan sonra mümkündür.
Çəkindirmə gücü əldə etməzdən əvvəl irəli sürülən gərginliyin azaldılması diskursu keçmişdə artıq qarşılaşdığımız (aldandığımız) böyük bir tələdir. Yekun qərarı verən tərəf Vəliyyi-fəqihdir, lakin xalq bu Quran diskursu ilə tanış olmalıdır ki, Vəliyyi-fəqihin qərarlarının arxasında dura bilsin.

## Düşmənin psixoloji əməliyyatları - Rəhbərliyin irsi olması şübhəsi

İlk olaraq bunu deməliyik ki, əsas meyar vərəsəlik deyil, ləyaqət prinsipləri və qanuni mexanizmlərdir: İran İslam Respublikasında rəhbərin seçilməsi Konstitusiyada müəyyən edilmiş və Xubriqan Məclisi (Ekspertlər Şurası) tərəfindən həyata keçirilən bəlli bir hüquqi mexanizmə əsaslanır. Bu seçim fərdin ailə mənsubiyyəti və ya vərəsəlik əsasında deyil, fiqh elmi, ədalət, təqva, idarəçilik və siyasi bəsirət kimi səlahiyyət və ləyaqətlilik

göstəricilərinə əsaslanır. Əgər ən layiqli şəxs təsadüfən əvvəlki rəhbərin övladıdırsa, bu, artıq vərəsəlik deyil, sadəcə əvvəlki rəhbərlə ailə bağı olan bir şəxsin layiqliliyinin üzə çıxmasıdır. Hər hansı şəxsi sırf ailə mənsubiyyətinə görə bu vəzifədən məhrum etmək özü ləyaqətlilik prinsipinin pozulmasıdır. Bundan əlavə, İslam və şiəlik tarixində elmi və dini rəhbərliyin atadan oğula keçdiyini göstərən çoxsaylı faktlar mövcuddur. Birinci və ikinci mərhum Səduqlar, Əllamə Hilli və Fəxrül-Mühəqqiqin, birinci Məclisi və Əllamə Məclisini buna misal göstərmək olar. Bu nümunələr göstərir ki, əsas prinsip vərəsəlik olmasa da, düzgün tərbiyə mühiti, alim və məsum insanların ailəsində yetişib tərbiyə almaq, övladların inkişafı və onların yüksək ləyaqətlilik tələb edən dərəcələrə yetişməsinə zəmin yarada bilər. Peyğəmbərlik və imamət ailəsində yetişmiş pak Əhli-beyt əleyhis-salam da bu cəhətdən ən yaxşı nümunədir. Qərbin bir çox demokratik sistemlərində də prezident və ya baş nazirlərin övladlarının ölkənin

qanuni prosedurlarından keçərək yüksək vəzifələrə təyin edildiyinin şahidi olmuşuq (ABŞ-nin özündə ata və oğul Buşları buna nümunə göstərmək olar). Həmin ölkələrdə zahiri qanuni prosedurlar tətbiq edildiyi üçün heç kim bunu vərəsəlik adlandırmır. Həmçinin, Ayətullah Seyyid Müctəba Xamenei Şəhid Rəhbər kimi bir atanın və yüksək tərbiyə sahibi olan bir ananın ailəsində tərbiyə almışdır. Bu mühit böyük vəzifələrdə təmsil olunmaq üçün zəruri olan xüsusiyyətləri formalaşdıran münbit zəmindir.

***

Digər bir şübhə isə Şəhid Rəhbərin irsi rəhbərliyə müxalif olması şübhəsidir. "Ağa (rəhbər) irsi rəhbərliyə müxalifdir və Ağa Müctəbanın rəhbərliyinə qarşı çıxıb" iddiası ortaya atılanda İnqilabın Şəhid Rəhbəri özü bu cümləni təkzib edərək buyurmuşdur: "Mən bu cümləni deməmişəm, gedin iclasın səs yazısını dinləyin". Xubriqan Məclisinin (Ekspertlər Şurası) Təhqiqat Komissiyasının katibi cənab Şeyx Məcid Yəzdi də iclasın mətnini və səs yazısını araşdırdıqdan sonra

həmin iclasda Ağa Müctəba Xameneinin rəhbərliyini inkar edən heç bir məqamın olmadığını təsdiqləmişdir. Bu təkzib göstərir ki, Şəhid Rəhbər övladının layiqlilik məsələsinə qarşı çıxmamış, üstəlik dövlətə ləkə gətirə biləcək hər hansı yanlış anlaşılmaya və ya şayiəyə son qoymağa çalışmışdır.

***

Son olaraq meydanda olmamaq (üzdə görünməmək) və tanınmamaq şübhəsinə cavab verib bu məsələni yekunlaşdırırıq. Əvvəlki bölmələrdə qeyd edildiyi kimi, o həm səhnədə olmuş, həm də çox böyük və mühüm strateji qərarların pərdə arxasında etibarlı bir müşavir fəaliyyəti göstərmiş, Şəhid Rəhbərin etibarlı müşaviri kimi ölkənin bir çox həyati məsələlərində, o cümlədən təhlükəsizlik, hərbi və beynəlxalq sahələrdə həlledici rol oynamışdır. Bu növ fəaliyyət ön planda olan və media vasitələrinin izlədiyi icra fəaliyyətlərindən qat-qat mühüm və effektivdir. Şöhrətpərəstlikdən uzaq durmaq, tapşırılmış vəzifələrə və elmi işlərə təmərküzləşmək onun həyat tərzinə xas olan bir cəhətdir. Bu

xüsusiyyət özü rəhbər şəxsdə çox mühüm əhəmiyyət daşıyan ixlasın olduğundan, vəzifəpərəstliyin olmadığından xəbər verir. Vəssalamu ələykum və rahmətullah.

İnqilabın Şəhid Rəhbərinin dəfələrlə dediyi "Seyyid Müctəbanın rəyləri mənim rəylərimdir"



cümləsi vəliyyi-fəqih tərəfindən onun strateji analiz, zəka və düşüncə qabiliyyətinə tam etimad edilməsinin aşkar dəlilidir. Rəhbərin şəhadətindən sonra İranın qəlbini hədəf almaq üçün başlanan müharibədə müqavimət libasını heç vaxt tərk etməyən sərv boylu və rəşadətli igidlərlə birlikdə mübarizəsində o, Əhli-Beyt (ə) diyarının cəsur oğullarından biri kimi yadda qalacaq...